Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Vətəni sevmək azdır, onu qorumaq gərək

**Uşaq və yeniyetmələrdə vətənpərvərlik hissilərini gücləndirmək məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

Tərtibçi: Nərgiz Məcidova

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**Vətəni sevmək azdır, onu qorumaq gərək** - mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait/Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Məcidova ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 46s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

*“Vətənpərvərlik nədir? Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Vətənpərvər gənclər yetişdirilməsi təkcə təhsil müəssisələrinin işi ilə bitmir. İlkin olaraq, ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdirilir, bütün cəmiyyətin, onun hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşir”.*

**Heydər Əliyev**
**Ümummilli lider**

Vətən torpağı hər birimiz üçün müqəddəs olub, əbədi və əzəlidir. Azərbaycanımız bizə babalarımızdan əmanətdir. Əmanət olan bu Vətəni qorumaqsa hər bir vətəndaşın vətəndaşlıq borcudur. Onu qorumaq üçün biz onu sevməliyik. Vətənimizi sevmək üçün isə əsl vətənpərvər olmalıyıq. Əsl vətənpərvər gənclərimizin yetişməsi üçün onlara vətən sevgisi aşılanmalıdır. Çünki Azərbaycanın gələcəyi gənclərimizə məxsusdur. Bu fikirləri dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev hələ ölkəmizə rəhbərlik etdiyi dövrlərdə səsləndirmişdir. O, rəhbərlik etdiyi dövrdə gənclərimizin hərtərəfli inkişafına imkanlar açan müvafiq tədbirlər həyata keçirmiş və tez bir zamanda müstəqil Azərbaycanımızın gələcəyini qoruyub saxlaya biləcək gənc nəsillərin yetişdiyinə əminliyini belə ifadə etmişdir: “Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir”.

Vətənpərvərliyin mahiyyəti vətənə məhəbbət və öz şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan bir hissdir. Bu  hiss həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürür kimi də hallanır. Burada vətəninin mədəni incilərini, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Dərin anlama malik kəlmə olan Vətənpərvərlik  qədim tarixi köklərə malikdir. Bu hiss dərin, müqəddəs və ülvi hisslərdən, duyğulardan biri olub hər bir adamın vətənə, millətə xidməti ilə ölçülür. Vətənpərvərliyin kökü olan Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından gəlir. İnsana ana südü ilə verilən  Vətənpərvərlik hissi körpə yaşlardan ailələrdən insanlara  aşılanır. Ailədən başlayan Vətənpərvərlik tərbiyəsi isə  bağçada, məktəbdə davam edir və cəmiyyətdə formalaşır. Müxtəlif ölkələrdə ayrı-ayrı mənalarda işlədilən bu kəlmə Amerika və Fransa burjuaziya inqilabları zamanı XVIII əsrdə, inqilabi ideologiya ilə əlaqələndirilmiş və "millət" anlayışı ilə eyniləşdirilmşdir. Sonralar vətənpərvərlik yeni dövlətlərin, milli-azadlıq hərəkətlərinin yaranması zamanı və müharibələr ərəfəsində daha da aktuallaşmışdır. Xalqımız isə gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına vətənpərvərlik demiş, bu kəlməyə həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Prezidentimiz İlham Əliyev gənclərimizin vətənpərvər, peşəkar, bilikli, savadlı olmasını hər zaman Vətən sevgisi ilə böyüməsini söyləmişdir.

Tərbiyə müəsisələrində uşaqlara ilkin vətənpərvərlik hissinin aşılanması üçün müxtəlif üsullardan istifadə edirlər, hər gün himn səsləndirilir, vətənpərvərlik mövzusunda mahnı və şerlər öyrədilir , uşaqlar dövlət atributlarının şəkillərini çəkirlər. Kitabxanalarında isə gələcək nəslin vətənpərlik tərbiyəsi işində

üzərinə bir çox vəzifələr düşür. Uşaq kitabxanası olaraq F. Köçərli adına Respublika uşaq kitabxanasında hər il bu sahədə böyük işlər görülür. Burada ən ülvi hiss, gözəl və nəcib əxlaqi keyfiyyət olan vətənpərvərlik hissinin gələcəyin qurucularına aşılamaq üçün maraqlı tədbirlər həyata keçirilir. Bu metodik vəsait də hər bir kitabxanaçının üzərinə düşən bu işi məktəbli oxucular arasında təbliğ etmək məqsədi ilə kitabxanaçılar üçün hazırlanıb. Vəsaitdə vətənpərvərliyə aid ədəbiyyatın təbliği, kitabxanalarda keçirilə bilən tədbirlər, vətənpərvərliyə dair işlərin təbliğinə dair hazırlana biləcək tövsiyələr yer alır. Hazırladığımız vəsait bu işdə uşaq kitabxanaları, lisey, məktəb, kitabxanalarında çalışan kitabxanaçılara köməklik məqsədilə tərtib edilib. Vəsait 2 hissədən ibarətdir. I. Vətənpərvərlik tərbiyəsi nədir? haradan başlayır?, Heydər Əliyev və əsl vətənpərvərlik, II.Kitabxanalarda vətənpərvərlik tərbiyəsi ilə bağlı keçiriləcək tədbirlər adlanır.

**Ailədən başlayan vətənpərvərlik**

"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir."

**Heydər Əliyev**
**Ümummilli lider**

Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradan xüsusiyyət olub, Vətənin bütövlüyü ilə mübarizə aparmaq üçün onda inam hissini gücləndirir. Bu hiss insana ilk növbədə atadan, anadan ailədən gəlir. Məhz ailə uşağı elə tərbiyə etməlidir ki, o vətənə, torpağa, elə-obaya, orduya, şəhidlərə məhəbbət ruhunda, düşmənə isə nifrət hissləri ilə böyüsün... Ailələrimizdə vətənə məhəbbət hissi uşaqlara aşılanmasa, bağça, məktəb, məktəbdənkənar tərbiyə müəssisələrində aparılan işlərin onlara

təsiri çətin olar. Çünki, uşaq bağçadan çox, anadan, atadan aldığı informasiyanı qəbul edir.
Biz ailədə dili yenicə söz tutmağa başlayan, ağlı yenicə kəsən uşaqlarımıza düşmənimizin kim olduğunu, şəhidlərimizin nə üçün öldüyünü, onların niyə müqəddəs sayıldığını, vətənimizin haradan başlayıb, harada qurtardığını, milli kimliyimizi, torpağın ana qədər doğma sayıldığını anlatmalıyıq. Həm də elə anlatmalıyıq ki, bunları heç vaxt yaddan çıxarmasınlar.

**Məktəb və vətənpərvərlik**

Vətənpərvərlik hissinin aşılanması bağçadan sonra uşaqlarla məktəbdə davam etdirilir. Şagirdlər qələm tutub yazı yazmağa, oxumağa başladıqda yazıb - oxuduqları ilk kəlmələr "Ana" və "Vətən" kəlmələri olur.

Ailədən sonra ümumtəhsil məktəblərindən başlayan Vətən sevgisi dərsliklərində Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə tanıdılır. Buda əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Xalqımızın öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gəncləri həmişə olub. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi bütün təhsil və mədəniyyət işində ön planda olub. Dəqiq ifadə etsək, insanın ilk cəmiyyəti ailəsindən sonra məktəbi hesab edildiyindən məktəblərdə təlim-tərbiyə prosesində şagirdlərə vətənpərvərlik hisslərinin aşılanması güclü olmalıdır. Qələm tutub yazı yazmağa, oxumağa başlayan şagirdlərin ilk yazısı, ilk sözü olan "Ana" və "Vətən" kəlmələri onlarn urəklərinə sevgi ilə həkk olunmalıdır. Azadlığımız, mənliyimiz, namusumuz, şərəfimiz olan Vətənimizi heç vaxt onlara unutdurmamalıyıq. Onlarda

alınmaz, verilməz, dəyişməz, satılmaz, qocalmaz, əbədi - əzəli bir vətən obrazı formalaşdırmalıyıq. Uşaqların milli mənlik şüurunun, vətənpərvərlik hisslərinin tərbiyəsi, onlarda ölkə, Vətən sevgisinin formalaşması hər bir metodisti müəllimi düşündürən vacib məsələlərdən biri olmalıdır.

**Kitabxanalarda vətənpərlik mövzusunun təbliği**

Bu gün vətənpərvərlik mövzusunun təbliği məktəblərlə yanaşı informasiya əsri adlandırılan XXI əsrin əsas məlumat mənbəyi olan kitabxanaların qarşısında da böyük vəzifələr qoyur. Müasir kitabxanalar və kitabxanaçılar müəllimlərlə birgə gənc nəslə vətənpərvərlik işinin təbliği prosesində yaxından iştirak edir. F.Köçərli adına Respublika Uşaq kitabxanası da vətənpərvərliyin təbliği işində hər zaman tədbirlər təşkil edir. Kitabxanada ömrünü xalqına həsr etmiş, tarixin ən böyük vətənpərvəri, Azərbaycançılıq ideologiyasını formalaşdırmış dahi şəxsiyyət, vətən sevgisi hər kəsə nümunə olan Ulu öndər Heydər Əliyevin fikirləri üçün xüsusi guşə yaradılmışdır. Ulu öndərimizin söylədiyi kimi biz də fəxr etməliyik ki, biz Azərbaycanlıyıq. Azərbaycanlı olan hər kəs, bu vətənin hər bir övladı, Azərbaycanımızın gələcəyinin əsl vətənpərvər böyüməsi üçün əlindən gələni etməlidir.

Ailədən başlayıb təhsil müəsisələrində davam etdirilən vətənpərvərlik tərbiyəsinin təbliği məqsədilə kitabxanalar orta məktəblər, təhsil müəsisələri ilə vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün birlikdə fəaliyyət göstərirlər. Çünki əsl vətənpərvər yetişdirmək üçün yeniyetmələr arasında əsas ədəbiyyata marağı artırmaq lazımdır. Hazırlanmış bu vəsaitdə Vətənpərvərlik nədir? Vətənpərlik işlərinin təbliği üçün kitabxanalarda keçiriləcək tədbirlər – oxu saatı, slaydlar, görüş, sərgilərin keçirilıməsi, anım gecələri və s. keçirilməsi mövzusunda ssenarilər yer alır. Vəsaitin sonunda məktəb, litsey,

kənd,qəsəbə kitabxanaları, MKS-lərin və uşaq kitabxanaların istifadəsi üçün ədəbiyyat siyahısı verilib.

**Heydər Əliyev və vətənpərvərlik**

“Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.”

**Heydər Əliyev**
**Ümummilli lider**

Böyük və mənalı ömrünü xalqına, Azərbaycanın möhkəmlənməsinə və yüksəlişinə həsr etmiş Ulu öndər Heydər Əliyevin vətənpərvərlik haqqında dəyərli fikirləri çoxdur. Dahi şəxsiyyətin qiymətləndirdiyi vətənpərlik hissi müstəqilliyimizi qorumaq, vətənə, millətə, xalqa sədaqətlə xidmət etmək və bu yolda canını belə əsirgəməmək kimi dəyərlərdən ibarətdir. Vətənə məhəbbət, xalqını sevmək hissinin təbliği isə hər bir sahədə yerinə yetirilməlidir.

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

Vətən təəssübkeşliyi, milli qürur deyəndə isə dahi şəxsiyyətin bu fikirləri yada düşür: “Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun.” Ulu Öndər vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edirdi. Dahi şəxsiyyətin azərbaycançılıq ideyasının güclənməsində, onun etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə keçirilməsində müstəsna rolu vardır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun”. Vətənə məhəbbət, əcdadların ənənələrinə hörmət olan Vətənpərvərliyə və

dövlətçiliyə söykənən azərbaycançılıq məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpası zamanı ölkəyə ikinci dəfə rəhbərliyə qayıdışından sonra milli bütövlüyümüzün təcəssümü olan milli ideologiya kimi formalaşdı, gerçəkləşdi və səfərbəredici fenomenə çevrildi. Böyük öndər gənclərin vətənpərvərlik tərbiyəsinə azərbaycançılığı, qəhrəmanlığı əxz etməklə bütün çətinlikləri aradan qaldırmaq vasitəsi kimi baxıb gəncləri vətənpərvərliyə belə səsləyirdi: “Siz də Azərbaycan xalqına xidmət edərək... Vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız.”

Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan və bütün azərbaycanlılar ümummilli liderin layiqli siyasi varisi ölkə Prezidenti İlham Əliyevin ətrafında birləşərək, müstəqilliyimizi daha da möhkəmləndirmişlər. Unutmamaq lazımdır ki, bu günün gənci sabahın atası, anası, ailə başçısıdır. Onun öz övladını necə tərbiyə etməsi isə ilk növbədə bu gün onun özünün necə yetişdirilməsindən asılıdır. Buna görə də bu sahədə görülən işlər, gənclərin vətənpərvərlik tərbiyəsi üçün əvəzolunmazdır.

**Kitabxanalarda vətənpərlik mövzusunun təbliği**

İnsana məxsus yüksək mənəvi keyfiyyətlər sırasında yer tutan vətənpərvərlik hissinin lap kiçik yaşlardan uşaqlara aşılanması daha vacib məsələdir. Bu hissin təkcə dərs prosesində deyil, dərsdənkənar məşğələlərdə, şagirdlərin üz tutduğu mədəniyyət müəsisələrində - kitabxanalarda düzgün təbliği mühümdür. Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin artırılması, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Kitabxanalarda vətənpərvərlik mövzularına həsr olunmuş tədbirlərin keçirilməsi

şagirdlərdə qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslərin yaranmasında və dərinləşdirilməsində mühüm rol oynayan fəaliyyətdir. Xalqımızın üzü ağ çıxdığı 44 günlük Qarabağ müharibəsində canlarından keçən şəhid və qazilərimizin sırasında təhsil və mədəniyyət ocaqlarında vətənpərvərlik hissi ilə böyüyən şagirdlərimiz də az olmamışdır. 30 ildir düşmən tapdağında olan torpaqlarımızın azad olunması ailə, təhsil və digər mədəniyyət ocaqları, kitabxanalarda, ümumiyyətlə cəmiyyətdə düzgün təbliğ olunan əsl vətənpərvər igidlərimizin sayəsində olmuşdur. Onların sayəsində Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Bununla xalqımız çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları təsvirəgəlməz qürur və sevinc hissləri keçirir. Çağdaş tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü təmin etdi. Bu haqqda kiçik yaşlı oxucularımızla kitabxanada söhbət keçirmək, sual-cavab, tapmaca, şeir müsabiqəsi, nağıl saatı təşkil etmək olar.

**Sərgi:**

Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən maraqlı üsuludur. Sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqləndirilir. Sərgi bir və ya bir neçə lövhədə, stenddə yerləşir. Əsasən baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi məsələlərinin böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır.

Kitabxana sərgilərində əsas dizayn işinin işlənib hazırlanmasıdır. Vətənpərvərlik ruhunda kitabxana sərgilərini aşağıdakı kimi qurmaq olar: - ənənəvi informasiya daşıyıcılarından - kitablardan ibarət olan kitabxana sərgiləri; elektron kitabxana sərgiləri, (kitabxanaların veb saytında verilən müxtəlif formalardan istifadə etməklə kataloq şəklində informasiyalar - kompleks kitabxana sərgiləri, müxtəlif xüsusiyyətli fonoqramların köməyi ilə tərtib olunmuş "danışan" kitab sərgiləri, video filmlər təqdim etməklə sərgilər, baxışlar, elektron sərgi günləri və s. Kitabxanalarda məqsəd və ümumi məzmununa görə ənənəvi sərginin iki növü təşkil edilir. a) kitabxanaya yeni daxil olan kitablar haqqında məlumat xarakterli universal sərgilər; b) tövsiyə xarakterli tematik sərgilər

Sərgilərdən əlavə kitabxanada tövsiyə xarakterli slaydların nümayişidə xüsusi yer tutur. Vətənpərvərlik ədəbiyyatının təbliğində yazıçı Ələmdar Quluzadənin vətənin təbiətinin gözəlliyindən, Qarabağın füsnkarlığından, Ana dilimizin şirinliyindən bəhs edən kiçikyaşlılar üçün yazdığı şeirləri verilmiş slayd maraqlıdır. Slayd clb.az saytının məlumat-biblioqrafiya şöbəsinin işləri sırasında yerləşdirilmişdir. Aşağdakı linkdə bu slaydla tanış ola bilərsiniz,

**https://www.clb.az/biblioqrafik-xidm%C9%99t/melumat-biblioqrafiya/slaydlar/sair-ur-yinin-qarabag-agrisi-l-mdar-quluzad**

Kitabxanada oxuculara vətənə məhəbbət hisslərinin aşılayan "Ana vətən" adlı virtual sərgi hazırlanmışdır. Sərgi kitabxananın saytında oxucuların istifadəsinə verilmişdir. Aşağdakı linkdə sərgi ilə tanış ola bilərsiniz. Vətən - doğma diyar, ana yurd.

**https://clb.az/elektron/ANA_VETEN/index.htm**

Vətən bir millətin illər uzunu yaşadığı, adət-ənəsinin, varlığının, şüurunun, birliyinin torpağı ilə birləşdiyi məkandır. Elə bir məkan ki, Ana qucağı kimi isti, Ata qoynu kimi əmin və

etibarlıdır. Vətən sadəcə coğrafı sərhədləri olan bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Biz vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, kəndimiz bu torpaqlardadır. Vətən müqəddəsdir, ata-babalarımız bu torpaqlarda yaşamış, onu becərmiş, qorumuş, onun uğrunda vuruşmuşlar. Onlar bu torpaqlar uğrunda canlarından keçib, şəhidlik zirvəsinə yüksəlmişlər. Vətən və vətəndaşı sevmək böyük bir əxlaqi keyfiyyətdir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, vətənin daşını, havasını, suyunu sevmək deməkdir. Əks halda bu sevgi kamil sayılmır. Hər bir vətəndaş mənsub olduğu millətin, xalqın mənəvi dəyərlərini bilməli, onları qətiyyən unutmamalıdır. Mənsub olduğu xalqın dilini, dinini, dövlət rəmzlərini göz bəbəyi kimi qorumalıdır. Hüquqlarını bilib, qanunlara əməl etməlidir. Bütün mənliyimizi ana vətənimizə - Azərbaycanımıza borcluyuq. Hər bir vətəndaş yurduna sadiq və layiq vətəndaş olmalıdır və bunun üçün əlindən gələni əsirgəməməlidir. Biz hamımız Azərbaycan vətəndaşıyıq, biz Azərbaycanımızı çiyinlərimizə qaldırıb işıqlı sabahlara, aydın gələcəyə aparmalıyıq. Düşmənləri qəlbimizdəki vətən sevgisinin, vətən məhəbbətinin atəşi ilə məhv etməliyik. Əsl vətənpərvərsə o adama demək olar ki, o, öz vətənini bütün qəlbi ilə, canı və qanı ilə sevir, onun azadlığı və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır. Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işi peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu yolda kitabxana işçilərinində üzərinə xüsusi vəzifə düşür. Bu gün sevindirici məqam odur ki, əsgəri xidmətə çağırılan gənclərimiz ordu quruculuğundan məlumatlıdırlar. Kitabxanaçı - biblioqrafların zəhməti və əzmkarlığı sayəsində gənclərimizə mütaliəyə maraq dərəcəsinin və onlara oxu

mədəniyyətinin aşılanması üçün işlər aparılır. Oxuduqları kitablarla əldə etdikləri informasiya ilə ilkin hərbi bilik və vərdişlərə yiyələnirlər. Buda Gənclərin ordu həyatı ilə ilkin tanışlıqları onların hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarına zəmin yaradır. Hansı peşədə çalışmasından asılı olmayaraq, gənclərimizin milli qürur hissinə sahib olan, dövlətçiliyimizi qoruyub saxlayan, Vətənini sevən, onun yolunda canından keçməyə hazır olan vətəndaşlar kimi formalaşmasında hər kəs bir olmalı, birgə fəaliyyət göstərməlidir. Kitabxanada vətənpərlik işlərinin aparılmasında görülən işlərdən birincisi kitab sərgiləridir. Hansıki, sərgilər oxucuların mütaliəyə marağını daha da artırır, onları ədəbiyyatlarla tanış edir. Kitab sərgiləri ədəbiyyatın əyani təbliği işi ilə seçilir. Buda kitabxanalarda ədəbiyyatın təbliği ilə yanaşı oxucuların mütaliəyə marağını artırır. Vətənpərvərlik işləri üçün hazırlanan kitab sərgisi öz düzülüşü ilə oxucu diqqətini çəkmək üçün istifadə edilən ədəbiyyat məqsədinə uyğun şəkildə məzmunu düzgün əhatə etməlidir. Vətənpərvərlik tərbiyəsinin təbliği üçün hazırlanan sərgini *“Torpağına baş əyirəm ey Vətən”* adlanır.

https://drive.google.com/file/d/1AAU3DmZ5197_s1hhtQI0v8Dc9BIwxyAu/view






https://drive.google.com/file/d/1P9c2sZ1k_bOErZ4Fr_RReQxuRX5h0UlK/view





















**Vətənpərlik haqqında fikirlər**

Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.”

Heydər Əliyev,
*Ümummilli lider*

“Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.”

Heydər Əliyev,
*Ümummilli lider*

“Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər.”

İlham Əliyev,
*Azərbaycan Respublikasının Prezidenti*

“Uşaqlara tərbiyə vətən məhəbbətindən başlamalıdır. Mənsub olduğu vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlanğıcıdır.”

Konstantin Uşinski,
*pedoqoq*

“Uşaqlara tərbiyə vətən məhəbbətindən başlamalıdır. Mənsub olduğu vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlanğıcıdır.”

Konstantin Uşinski
*pedoqoq*

“Bu hiss insana genlə, qanla keçsə də, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır”.

Atalar sözü

Vətənpərvərlik hissi və milli şüur uzun bir tarixi yolun məhsuludur.

Vətənə məhəbbət iman əsəridir.

Atalar sözü

Azərbaycanın tarixi keçmişinə bağlı, hər şəraitdə onun təəssübünü çəkməyi bacaran hər kəs əsl vətəndaşdır.

**Oxu saatı**

*Kitabxanalarda üçrəngli bayrağımızı tanıtmaq üçün oxucularla müxtəlif tədbirlər keçirə bilərik. İlk öncə oxuculara bayrağımız haqqında danışırıq. Bayraq milli qürur rəmzi kimi, birliyi işarələyən, dövlət rəmzi olub, müharibələr, inqilablar, nümayişlər zamanı öndə, insanların başı üzərində aparılan, müxtəlif rəsmi təşkilatların binalarının qarşısında dirəyə asılan, Vətən uğrunda şəhid olanların qəbirləri üzərinə salınan dövlət atributudur. Zəfərlər qalibiyyətlərdə dövləti ilə bərabər olan bayraq haqqında danışmağın kitabxanada xüsusi yeri var.*




"Azərbaycan bayrağı" adlı kiçikyaşlılarla nağıl saatı hazırlamaq olar. Maraqlı hazırlanmış nağıl saatı kiçikyaşlı oxucuları qürurumuz olan bayrağımızı tanıdacaq. Bu mövzuda onlara "oxu saatı" təşkil edə bilərik. Oxu saatında kitabxanaçı nağıl otağında onlara "Güvəncin nağılları" seriyasından olan Azərbaycan bayrağı nağılını oxuyur. Nağılın çox maraqlı sujet xətti var. Kitab şəkillər,illisturasiya ilə hazırlanmışdır. Nağılı dinlədikdən sonra isə kitabxanaçı kiçikyaşlılarla nağıl ətrafında sual-cavab keçirir.

**Sual-cavab**

1. El-oba kimin nişan məclisinə yığışmışdır?
2. Faiq Güntəkinə hansı qərarını söylədi?
3. Güntəkin Faiqi yola salarkən ona nə bağışladı?
4. Faiq cəbhədə hansı yüksəkliyi qoruyurdu?
5. Necə oldu ki, ermənilər əsgərlərimizi əsir ala bildi?
6. Əsir düşən əsgərlərimizi harada saxlayırdılar?
7. Zindanda saxlanılan əsirlər zindandan qaçmaq üçün hansı yolu seçdilər?
8. Əsgərlərimiz zindandan qaça bildilərmi?
9. Faiq nə üçün geriyə qayıtdı?
10. Faiq öz məqsədinə çata bildimi?

**Söhbət**

Yuxarısinif şagirdləri ilə bayraq haqqında söhbət apara, sual-cavab edə bilərik. Söhbətdə Bəxtiyar Vahabzadənin yazdığı "Bayraq"şeirindən istifadə edə bilərik.Vətənpərvərlik işlərinin təbliğində "Bayraq"-la bağlı şeirlərin təbliği əsas məsələdir. Bu şeirlərdə vətəndaşlıq qüruru aşılamaq üçün çox ibrətamiz fikirlər yer alır

- Bayraq mənliyimdir, bayraq kimliyim!
  Bayraq öz yurduma öz hakimliyim!

Bu şeir ətrafında ortayaşlı oxucularla söhbət edərkən qeyd etməliyik ki, hər bir müstəqil yurdu, dövləti olan xalqın bayrağı olur! Bayraq bizim ən dəyərli atributlarımızdandır. 100 ildən artıq tarixi olan bayrağımız millətçiliyimizdə, mənəviyyatımızda mühüm rol oynayır. Ərazi bütövlüyümüzün, dünya azərbaycanlılarının mənəvi, mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvolu, canımız, qanımız olan müqəddəs bayrağımız bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun uğurlu əməliyyatları

nəticəsində düşmən tapdağından azad olunan qədim yurd yerlərimizdə dalğalanır. Bu gün artıq qürur mənbəyimiz olan bayrağımız işğaldan azad edilmiş Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayılda və bütün Qafqazın incisi, qədim mədəniyyət mərkəzi, Qarabağın mirvarisi olan Şuşa şəhərində qürurla, vüqarla dalğalanır. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir

**Sual-cavab:**

1. Bayrağın üzərindəki hər rəng və simvol hansı özəl məna daşıyır.

2. Azərbaycan Respublikasının Milli bayrağı nəyin rəmzi hesab edilir?

3. Azərbaycanın milli rəmzləri hansılardır?

4. Uşaqlar, bəs nə üçün azərbaycanlılar hansısa bir yarışlarda zəfər çalanda Azərbaycan bayrağı ucalır?

5. Azərbaycanın möhtəşəm şairləri bayrağımız haqqında bir çox şeirlər yazıblar. Bu şeirlərdən hansının adını çəkə bilərsiniz?

6. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs dövlət bayrağımız ilk dəfə neçənci ildə qəbul edilmişdir?

7. Vətənpərlək insanda nə ilə ölçülür?

8. Vətənpərvərlik mövzusunda yazan yazıçı və şairlərdən kimləri tanıyırsınız?
9. Vətənpərvərlik mövzusunda yazılmış hansı kitabları oxumusunuz?
10. Bayraq mənliyimdir, bayraq kimliyim,

Bayraq-öz yurduma öz hakimliyim. – şeirinin müəllifi kimdir?

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş
Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq-öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.
Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.

Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

https://www.youtube.com/watch?v=anhgoPiX_3k

Şair Davud Aslanın "Ən şirin şey" şeirində göstərir ki, ən şirin ən əziz nemət öz obamız, elimizdir, dağımızdır, gölümüzdür! Ana deyən, Vətən deyən bizim doğma dilimizdir. T. Bayramın "Azərbaycan deyəndə", Mədinə Gülgünün "Hərkəsə şirindir öz yuvası" kimi şeirləri kiçik yaşlı oxucuların diqqətinə çatdırmaq olar. Ana deyən, Vətən deyən bizim doğma dilimizdir.




Şagirdlərin tarixi yaddaşını formalaşdırmaq üçün onlara "Tarixi şəxsiyyətlərimiz" haqqında məlumat vermək lazımdır. Azərbaycan hərb tarixinin yüzdən çox generalından bəhs edən yazıçı-jurnalist Şəmistan Nəzirlinin Güllələnmiş Azərbaycan generalları kitabı əsasında yuxarısinif şagirdləri ilə söhbət apara bilərik. Söhbətdə Vətənini sevən vətənpərvər Azərbaycan oğullarını - generallarımızı oxuculara tanıda bilərik.
Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin Azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək böyük gələcəyimiz naminə ən mühüm vəzifə kimi mədəniyyətimizin qarşısında duran vəzifələrdəndir. Doğrudur, dövlətçilik, vətəndaşlıq vətənpərvərlik kitablarda əks olunmaqla, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir.

Vətənpərvərlik hisslərinin aşılanmasında bu mövzuda mütaliəyə maraq yaradacaq slaydların hazırlanması məqsədəuyğundur.




**Rüstəmov Ə. (Hacı). Qalx ayağa, Vətən oğlu! – Bakı : Vektor Nəşrlər Evi, 2005. – 151 s.**

Hər birimizin oxuyacağı bu kitabın hər səhifəsində, hər sətrinə, hər cümləsinə, hətta durğu işarələrinə belə Hacı Əkbər adlı bir övladın Vətən sevgisi səpələnmişdir. Bu kitabı ürəyinin qanı ilə səngər divarlarına yazılmış Vətən sevgisi dastanı da adlandırmaq olar




**Azayev Ə. Qanlı gündəlik : povest və hekayələr. – Bakı : Azərnəşr, 2002. – 240 s.**

Yazıçı Əlisəfa Azayevin “Qanlı gündəlik” adlı povestində Qarabağın tacı, mədəniyyət beşiyi Şuşa şəhəri uğrunda gedən son döyüşlərdən bəhs olunur. Əsgər gündəliyi formasında yazılmış bu povest əslində xalqımızın gözü qarşısında baş vermiş məlum hadisələrin ümumiləşdirilmiş mənzərəsidir.

Vətəni sevmək, onu daha yaxından tanıtmaq üçün kitabxanalarda məlumat xarakterli biblioqrafiya xidmətini həyata keçirmək olar. Oxucuları vətənpərvərlik mövzusunda mütaliəyə cəlb etmək üçün yuxarı sinif şagirdlərinə slaydların, bukletlərin, əlfəcinlərin, daycestlərin hazırlanması məqsədəuyğundur. F.Köçərli adına Respublika Uşaq kitabxanasının məlumat-biblioqrafiya şöbəsi tərəfindən vətənpərvərlik mövzusunda "Şuşa, 270 yaşın mübarək!", "Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Zəfərimiz" adlı daycest hazırlanmışdır. "Qarabağ bizi səsləyir" başlıqlı yuxarı sinif şagirdləri üçün hazırlanmış slayd isə müəllimlər, kitabxanaçılar, yuxarı sinif şagirdlərinə Qarabağ müharibəsindən bəhs edən kitablardan ibarət ədəbiyyat tövsiyəsidir. "Slaydlar" və "daycestlər" clb.az saytının biblioqrafiya bölməsində yerləşdirilmişdir.
[*https://www.clb.az/biblioqrafik-xidm%C9%99t/melumat-biblioqrafiya/slaydlar/az-rbaycan-tarixi-b-dii-d-biyyatda*](https://www.clb.az/biblioqrafik-xidm%C9%99t/melumat-biblioqrafiya/slaydlar/az-rbaycan-tarixi-b-dii-d-biyyatda)




**Məhərrəmov M. Fərari: ssenari roman. – Bakı : Təknur, 2008. – 210 s.** Bu kitab bu gün Qarabağ savaşının əsl mahiyyətini tək başına üzə çıxaran, bütün məhrumiyyətlərə baxmayaraq vətən eşqini hər şeydən üstün tutan bir türk övladının düşmənə qarşı göstərdiyi şanlı qəhrəmanlıq epizodlarından bəhs edir. Kitab hər bir gəncin oxuyacağı və bu möhtəşəm əsərdən nəticə çıxaracağı ümidi iə yazılıb.




**Muradxanlı E. Siz mühasirədəsiniz, leytenant : roman və hekayə . – Bakı: Avrasiya Press, 2009. – 152 s.**

Kitabda real faktlara söykənən bədii nümunələrlə təsvir edilən döyüş səhnələri müharibə iştirakçılarının xatirələri əsasında ümumiləşdirilib.

**Hekayə saatı , söhbət.**




Hekayə saatında Əziz Sultanın 44 günlük Vətən müharibəsindən bəhs edən **"Zəfər yolunda 44 gün"** adlı kitabını seçə bilərik. Kitabı müəllif Şanlı Vətən müharibəsi zamanı qəhrəman xalqımızın, qorxubilməz əsgərlərimizin, fədakar qazilərimizin yaşadığı, danışdığı hadisələr əsasında hazırlamışdır. Kitabda yer alan hadisələr bu gün üçün böyük sərvətimiz olub gələcək nəsillərə yadigar qalacaq qəhrəmanlıq nümunələridir. Oxuculara hekayə saatı zamanı aşağıdakı hekayəni təqdim edə bilərik. Kitabxanaçı oxuculara kitabda yer alan **"Ən dadlı yemək"** hekayəsini oxuyur.

Oktyabr ayının bitməyinə on gün qalırdı. Vətən müharibəsi bütün şiddətli və ard-arda gələn zəfər müjdələri ilə davam edirdi. Yüz əlli nəfərə yaxın heyəti olan bölük təyin olunan hədəfi mühasirəyə almış, artıq təmizləmə əməliyyatı başlamışdı. Hədəf Zəngilan rayonunun işğaldan azad olunacaq növbəti yaşayış məntəqəsi – Mincivan qəsəbəsi idi. Sərrast nişançılar -

snayperlər qəsəbəni görən hündür yerlərə mövqelənmiş, təyin olunan hədəfləri məhv etmək üçün onların aşkarlanmasını səbrlə gözləyirdilər. Bundan əvvəlki döyüşdə yol kənarındakı səngərin üstündə maskalanmış olan snayperi  müəyyən etmək üçün Pərviz dörd saatdan artıq vaxt itirmişdir. Əlbəttə, özünü də aşkara çıxarmadan, maskalanmış halda, tərpənmədən, səbirlə gözləmişdir. Və o muzdlu snayperi zərərsizləşdirdikdən sonra piyadalar rahatlıqla yolu keçə bilmişdir. İndidə ona bənzər bir vəziyyət var idi Qəsəbədə mövqelənən otuza yaxın erməni əsgərlərinin rabitəçi zabitini təsbit etməli idi. Rabitə ilə əlaqəsini kəsərək  onları başıboş kütləyə çevirmək üçün onun bircə  dəfə barmağı  yüngülcə tətiyə toxunması kifayət  edəcəkdi...

**Sultan Ə.Zəfər yolunda 44 gün.- Bakı : Universal Poliqraf nəşriyyatı, 2022. -S.75-78.**

Bu hekayə kitabda yer alan 44 günlük Zəfər müharibəsinə həsr edilmiş vətənpərliyin aydın  tərənnüm edildiyi nümunələrdəndir.

**Biblioqrafik icmal**

Biblioqrafik icmallar kitabxanalarda geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Kitabxanalarda keçirilən icmalların formalarından biri olan tövsiyə icmallarının məqsədi isə geniş oxucu kütlələrinin diqqətini bu və ya digər mövzuya, müxtəlif




mövzularda yaranan yeni ədəbiyyata, əsərlərə cəlb etməkdən ibarətdir. Keçirilən biblioqrafik icmallarda oxucular müvafiq bədii ədəbiyyatla tanış olur və həmin kitablarla maraqlanırlar. Kitabxanada vətənpərvərliyin təbliği işində xalqımızın vətənpərvər, sərkərdə oğullarının döyüş və ömür yolundan bəhs edən yazıçı Şəmistan Nəzirlinin **"Güllələnmiş Azərbaycan**

**generalları”** adlı kitabının biblioqrafik icmalını təşkil edə bilərik.

**Nəzirli, Şəmistan Əmiraslan oğlu. Güllələnmiş Azərbaycan generalları: Hekayələr, portretlər, oçerklər, məqalələr. - Bakı: Kooperasiya, 2006. - 624 s.:**

Tədbiri keçirmək üçün kitabxanada icmalın vaxtı müəyyənləşir. Kitabxanaçı “Vətənpərvərlik nədir?” Vətənpərvər necə olmalıdır? sualları ətrafında ilk öncə oxucularla söhbət edir. Sonra isə tədqiqatçı-publisist Şəmistan Nəzirlinin arxiv sənədləri əsasında yazılmış bu kitabı haqqında icmala başlayır. Kitabda totalitar sovet rejimi illərində Azərbaycanın on doqquz generalının, onlarla ali rütbəli polkovnik və podpolkovnikin faciəli həyatı araşdırılır. Bu araşdırmada onların həyatı dönməzliyi, əsl vətənpərvərliyi ilə seçilən qəhrəmanlar gənclərə bir vətənpərlik nümunəsidir. Sonda kitab oxuculara mütaliə üçün tövsiyə edilir.

**Müzakirə**

**Zöhrablı N.**




**İgid ömrü. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2021. - 256 s.**

Bundan başqa kitabxanaçı oxucularla **“İgid ömrü**” adlanan sənədli povestin müzakirəsini təşkil edə bilər. Bu povest **“Şəhidlər ölməz Vətən bölünməz”** seriyası ilə çap edilən kitablardandır. Kitab Azərbaycanın milli qəhrəmanı, Xocalıda yaşamış Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı, həyat, döyüş və qəhrəmanlıq yollarından bəhs edir. Kitab ermənilərin azərbaycanlılara qarşı yürütdüyü soyqırım və ona qarşı qəhrəmancasına vuruşmuş Füzuli

Rüstəmovun mübarizə əzmini bir çox spesfik detallarını özündə əks etdirən salnamə xarakterli bir nümunədir.

**Görüş**




**Sultan Ə.Zəfər yolunda 44 gün.- Bakı : Universal Poliqraf nəşriyyatı, 2022. - 248 s.**

Bundan başqa kitabxanada vətənpərvərlik hissinin şagirdlərə aşılanması üçün orta və böyük yaş qrup oxucularla qazilərimizlə, müharibə iştirakçıları ilə görüş təşkil etmək daha maraqlı olar. Görüşdə uşaqlar müharibənin canlı şahidləri ilə yaxından tanış olur, kitablardan oxuduqları, mütaliə etdikləri filmlərdən gördükləri hadisələri onlardan canlı olaraq eşidirlər. Görüşə dəvət olunan insanlarla əvvəlcədən kitabxanaçı görüşüb vaxtı müəyyənləşdirir. Təyin edilən görüş keçiriləcək yerdə sərginin təşkili də olduqca zəruridir. Sərgiyə nəşrlər – kitablar, məqalələr seçilib, fotolar yerləşdirilir.

Həmçinin görüşə bizlərə 44 günlük şanlı Zəfər gününü yaşadan vətən övladlarımızın danışdığı hadisələr, real faktlar əsasında **“Zəfər yolunda 44 gün”** adlı kitabı yazmış Əziz Sultanıda dəvət edə bilərik. Müəllifi bu tədbirə çağırmaqda məqsədimiz, Vətən müharibəsində olmuş hadisələr əsasında hazırlanmış bu kitab haqqında oxuculara məlumat verməkdir. Vətən müharibəsində qələbəmizin təbliğindən bəhs edən hekayələrdən ibarət bu kitabda 44 günlük Zəfər yolumuzda igid oğul və qızlarımızın ön və arxa cəbhədə göstərdikləri şücaət və fədakarlıq nümunələrinin bir qismi hekayə şəklində oxuculara təqdim edilmişdir. Hekayələrlə tanış olarkən deyə bilərik ki, kitab hər bir gəncə əsl vətənpərvərlik nümunəsidir.

Gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşan Azərbaycan xalqı gənclərin vətənpərvərlik tərbiyəsinə, vətəndaş kimi düzgün formalaşmasına və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir.

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə

işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olub. Bəziləri hisslərini belə ifadə edir :

- “Ulu öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi “Müstəqillik qazanmaq olar, amma onu saxlamaq çox çətindir. Onu saxlamaq üçün isə bizim gənclərimiz öz səylərini bu yolda əsirgəməməlidirlər. Vətənpərvərlik insanın canından, qanından gəlməlidir. İstər- istəməz hər kəs bu vətənin övladıdır və hər kəs bu Vətənə borcludur.”

Azərbaycanım, bu Vətənin suyunu içiriksə, havasını içimizə çəkiriksə, biz də bu Vətənə borcluyuq. Ölkəmizin tarixi haqqında sistemli, uşaqların başa düşəcəyi tərzdə verilən məlumatlar da vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. İstər dərsliklərdəki ayrı-ayrı mətnlərdə, istərsə də aparılan tərbiyəvi söhbətlər, tədbirlər zamanı verilən belə məlumatlardan şagirdlər Vətənimizin zəngin tarixi, xalqımızın zaman-zaman öz varlığını qorumaq üçün apardığı mübarizələr, azadlıq və müstəqillik uğrunda gedən mücadilələr haqqında biliklər əldə edir, bu biliklər əqidəyə çevrilərək onlarda vətənpərvərlik hisslərini daha da artırır. Vətənpərvərlik tərbiyəsində xalqımızın qəhrəman oğulları, tarixi şəxsiyyətlər haqqında şagirdlərə verilən məlumatlar, aşılanan biliklər də güclü təsir qüvvəsinə malikdir. Şagirdlərlə aparılan vətənpərvərlik tərbiyəsi işi onların Vətənə məhəbbət və sədaqət ruhunda böyümələrinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərə yiyələnmələrinə müsbət təsir göstərir.

Vətən hər birimizin müqəddəs səcdəgahı, pənah yeridir. Dünyada ən böyük qəhrəmanlıqlar da məhz vətən naminə edilib. Vətən üçün kimlər öz əziz canından keçməyib ki?! Görkəmli şəxsiyyətlər, qorxmaz sərkərdələr, cəsur igidlərin çiynində yüksəlib bu Vətən!

Vətən haqqında xalq yaradıcılığında: mahnılarda, bayatılarda, zərbi-məsəllərdə, atalar sözlərində gözəl fikirlər söylənilmişdir. *"Qürbət eldə bəy olunca, vətənində dilən gəz", "Vətənə gəldim-imana gəldim"* və s. kimi bənzərsiz nümunələr nəsildən-nəslə keçərək ürəklərdə yaşamış, həmişə təravətli qalmışdır. Şifahi xalq yaradıcılığında olduğu kimi, klassik və müasir yazılı ədəbiyyatımızda da vətən mövzusu böyük məhəbbətlə, sənətkarlıqla işlənmişdir. "Vətən" məfhumu dövrlə, tarixi şəraitlə əlaqədar olaraq dəyişir, daha geniş məzmun kəsb edir. Dünyada hər şey kiçilər, amma vətən kiçilməz. Hər şeydən keçmək olar, vətəndən keçmək olmaz. Əslində vətənlə bağlı hissləri, düşündüklərimizi ifadə etmək heç də asan deyil. Yəni, vətən bizim hisslərimizdən, düşündüklərimizdən də qat-qat yüksəkdədir. Onu tərif edə biləcək söz isə məhəbbətlə yoğrulan ən qüdrətli kəlamdır. Gələcək nəslin vətənpərvər böyüməsi işində onların Vətən uğrunda canlarından keçən qəhrəmanlarımızı tanıması vacibdir. Bunun üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi metodika şöbəsi clb.az saytının "Tarixdə bu gün" bölməsində doğum günü olan şəhidlərimiz haqqında mütəmadi olaraq məlumat yerləşdirir. Burada tarixi qeyd edib, axtarışa verməklə qəhrəmanlarımız haqqında məlumat əldə edə bilərik.

**Oxu saatı**

Tariximizə nəzər salsaq görərik ki, elimizin, obamızın ən gözəl ənənlərindən biri də torpağa, ana yurda, vətənə bağlılıq, xalqımızı zaman-zaman yadelli işğalçılardan qorumaq, vətən üçün candan keçmək olmuşdur. Xalqımızın vətən uğrunda, torpaq uğrunda canından, qanından keçən saysız-hesabsız, unudulmaz qəhrəmanlarından - İstər Qarabağ müharibəsi və II Qarabağ müharibəsi, istər Böyük Vətən müharibəsi, xalqı üçün

daima ömrünü şam etmiş elm xadimləri, sərkərdələr və s. vətənpərvər insanlardan qürur hissi ilə danışmalıyıq. Deməli, vətənpərvərlik, vətən sevgisi və bu kimi ifadələrə tərif tapmaq əvəzinə, bu hissi gələcək nəslə hansı vasitələrlə aşılamalıyıq fikrinin üzərində düşünməliyik. Bu ali duyğunu suya, çörəyə olan tələbat kimi övladlarımıza çatdırmalıyıq.




Kitabxanada vətənpərvərlik tərbiyəsini kiçikyaşlı uşaqlara təbliğ etmək məqsədilə Vətən haqqında səhnəcik də hazırlaya bilərik. Sizə Mehriban xanım Nağıyevanın qələmə aldığı **“Xarıbülbül və günəşin nağılı”** hekayəsi əsasında **“Vətən bağı al-əlvandır” başlıqlı** səhnəciyi təqdim edirik. Burada kitabxanaçının əsas məqsədi uşaqlara vətəni sevmək, onu qorumaq, vətənə layiqli vətəndaş olmağın yollarını göstərməkdir.”Səhnə qurulur Şuşa, Xarıbülbül, Günəş, Bulud şəkilləri ilə səhnə bəzədilir.

*Səhnəyə iştirakçılar gəlir:*

Kitabxanaçı: Günəş hər gün olduğu kimi, yenə bu səhər də Qarabağın ucsuz- bucaqsız düzlərində Xarıbülbülü axtarırdı.... Onun əsrarəngiz ətri, gözəl ləçəkləri üçün elə darıxmışdı ki... O illərdi axtarırdı, amma tapa bilmirdi. Heç ətridə duyulmurdu....Görünür öz doğmalarını itirəndən bəri bu gözəl çiçək qeybə çəkilmişdi. Səhər Günəş yuxudan oyandı. Buludların arxasından saralmış, qızılı - sarı rəngə bürünmüş təbiətə nəzər yetirdi. Elə bu vaxt çox güclü bir partlayış baş verdi. Diksindi Günəş. Gözlərini yumdu və sonra qorxa-qorxa səs gələn tərəfə baxdı...Qarabağ qatı dumana bürünmüşdü. Bir az aşağı əyildi. Gördüyü mənzərə Günəşi çox kədərləndirdi.

Yerdə qızğın döyüş gedirdi. Düşmənlər bu torpağı işğal etməyə çalışırdılar. Hər tərəfi dağıdır,insanları və bütün canlıları məhv eləməyə çalışırdılar. Çoxlu şəhid gördü Günəş. “Ah” dedi yana-yana. “ah” dedi...Qara buludun arxasında gizləndi... Çox uzaqlara, lap uzaqlara getmək istədi. Amma bacarmadı. Fikirləşdi ki, gedərsə hər yer qaranlığa bürünər, yağış yağar. Torpaqların azadlığı uğrunda döyüşən əsgərlər çətinlik çəkər, ayaqları palçıq olar. Palçıqda yerimək çətindi axı...

Günəş buludun arxasında gizlənmişdi. Gözlərini yummuşdu ki, düşmənlərin vəhşiliklərini görməsin. Bulud özünü saxlaya bilmədi, yerdəki ah-naləni görüb acı-acı ağlamağa başladı...
Günəş tez Buludun arxasından çıxıb dedi:

*Səhnədə Günəş və Bulud görünür:*

**Günəş:** Ağlama-ağlama əsgərlərin ayağı palçıq olar.

*Bulud göz yaşlarını silib deyir:*

**Bulud:** Necə ağlamayım? Bax gör yerdə nələr baş verir?
Müharibə başlayıb, insanlar ölür...Özü də gör necə!
Sən ki, bunu görürsən. Mən buna necə dözüm?!

**Günəş:** Özünü birtəhər topla. Sən ağlasan yağış yağacaq,
düşmənə fürsət verəcəksən. Çəkil, mən hər yeri
qurudacam. Qoy azadlıq uğrunda döyüşənlər qələbə
qazansınlar...

*Bulud çəkilib deyir:*

**Bulud:** Doğru deyirsən, yağış yağdırsam, əsgərlərin işi
çətinləşəcək.

*Günəş aşağı baxdı... Sevincindən bilmədi, nə etsin... Düşmənin əlində olan torpaqların xeyli hissəsi azad edilmişdi. Qalib əsgərlər zirvələrə Azərbaycan bayrağını sancmışdılar. Günəş əsgərlərimizin sevincindən bir az da ruhlanır, daha da parlayaraq ətrafa nur saçırdı. Onun sevincinin həddi-hüdudu yox idi. Gecə yenədə döyüş səngimədi. Səbirsizliklə səhərin gəlməsini gözləyən Günəş səhər tezdən qalxdı. Al şəfəqlərini ətrafa səpən Günəş gözəl bir mənzərə gördü: Bütün zirvələrdə Azərbaycan bayrağı dalğalanırdı. Növbəti gün Günəş sevinə-sevinə özünü Qarabağın səmasına yetirdi. Yenə gözəl bir gün başlayırdı. Xarıbülbüllə görüşəcəkdi. Günəş dağda əsgərlərin dərdiyi Xarıbülbülü görür və deyir:*

**Günəş:** 30 ildir hardaydın, səni bu dağlarda çox axtardım.

*Xarıbülbül ah çəkir.*

**Xarıbülbül:** Düşmənlərin əlindən gizlənmişdim. Axı bu dağların, bu torpaqların əsl sahiblərini düşmənlər qovmuşdu. Mən də sahibimi gözləyirdim Özümə söz vermişdim, şuşalılar gəlməyincə görünməyəcəm.

**Günəş:** Daha azadsan, Xarıbülbül, doğmalarına qovuşdun. Bu yerlərin əsl sahibləri olan şuşalılarda gəlib bax...

**Xarıbülbül:** Elə ona görə açmışam da...Bu səhər o qədər ağlamışam... Sevincdən ağlamışam.

*Günəş Xarıbülbülü tapdığına görə elə xoşbəxt olmuşdu ki, səmada elə hey gülümsəyirdi. Şuşaşının dağları mahnısı səslənir iştirakçılar səhnədən gedir.*

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü-nüma
Vətənim verdi mənə nanü-nəmək
Vətəni məncə unutmaq nə deməkʔ!
Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.
Südüdür ki, dolanıb qanım olub,
O mənim sevgili cananım olub.
Saxlaram gözlərim üstə onu mən,
Ölərəm əldən əgər getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa ol şəxsdə vicdan olmaz!

Bəlkə də elə bir çoxları üçün təəccüblü görünən "Uşağın tərbiyəsi ana bətnindən başlamalıdır"- məsəli təsadüfən deyilməyib. Bəli, uşaq ilk olaraq göz açdığı ailədə tərbiyə alır. Düzgün tərbiyələndirməklə, yaxşı keyfiyyətləri öyrətməklə yanaşı, vətənə, dövlət atributlarına, milli-mənəvi dəyərlərimizə sadiqlik hissi uşağa kiçik yaşlarından, ilk növbədə ailədə aşılanmalıdır. Məşhur rus pedaqoqu Uşinski yazırdı: "Uşaqlara tərbiyə vətən məhəbbətindən başlamalıdır. Mənsub olduğu vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlanğıcıdır."

Azərbaycan torpağı müqəddəs torpaqdır. Bu torpağa qanı tökülən igidlərin yazdıqları tarix və etdikləri igidliklər Azərbaycanın müqəddəs torpağını daha da ulu etmişdir. Şəhidlər üçün yazılan hekayələr həm də gələcək nəsillər üçün ibrət dərsidir. Qoy onlar xeyiri şərdən, ağı qaradan ayıra

bilsinlər. Vətən yolunda şəhidlik əsl vətəndaşlığın ən ali zirvəsidir; bütün zirvələrdən yüksəkdə duran ilahi bir zirvə, həm də o, adi gözlə yox, yalnız mənəvi gözlə görülə biləcək bir zirvədir. Məhz buna görə də bu gün gənclərin vətənpərvərlik tərbiyəsindən danışdıqda, gənclərimizin vətənpərvərlik ruhunda yetişdirilməsindən söz açdıqda mütləq vətən yolunda canından keçmiş igidlərin həyat yolundan söhbət açmaq lazımdır. Bu amilə uyğun olaraq da gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində həyata keçirilən tədbirlərdə yeniyetmə və gənclərin hərbçılırimizlə görüşü onlara qəhrəmanlıq tariximiz haqqında bədii və sənədli filmlərin nümayiş olunması, müharibə iştirakçıları ilə birgə tədbirlərin həyata keçirilməsi, şeir, inşa müsabiqələrinin kitabxanada keçirilməsi daim diqqət mərkəzində olmuşdur.

**Hekayə müsabiqəsi**

2021-ci ildə F.Köçərli adına Respublika UŞAQ kitabxanası yeniyetmələrdə vətənpərvərlik tərbiyəsi və inkişafı istiqamətində vətən torpağına, millətə, sədaqət hisslərini aşılamaq məqsədilə 8 noyabr Zəfər gününə həsr edilmiş **"Rəşadətlə yaşayanlar - ölümü fəth edənlər"** adlı ümumrespublika hekayə müsabiqəsi keçirib. Müsabiqənin keçirilməsində əsas məqsəd yeniyetmələr arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, onlara milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hisslərin aşılanması Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin rəşadəti və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gələcək nəsillər üçün yeni bədii mətnlərin yaradılması yaradıcı potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından müasir, ədəbi əsərlərin yazılmasına stimul vermək idi.



Müsabiqəyə təqdim edilən nağıllar həmdə kitab şəklində çap edilmişdir. Kitabın ön sözü və ideya müəllifi F. Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Dadaşovadır.

**Ölümü fəth edənlər - Bakı : Təhsil, 2021. - 112 s.**

Kitaba 25 hekayə daxil edilmişdir. Oxuculara təqdim olunan bu kitabda müxtəlif yaşlı uşaqların qəhrəman igidlərimizin rəşadətli döyüş yolu haqqında hekayələri verilmişdir.Toplanmış hər bir hekayə şəhidlərin unudulmaması və gənc nəslin vətənpərvərlik ruhda tərbiyə edilməsində çox faydalı vəsaitdir.Kitabda həmçinin məktəblilərin yazdıqları hekayəyə uyğun olaraq çəkdikləri rəsmlər də yer alır.

Vətənpərvərlik hamımız üçün ən ülvi hissdir, doğma yurda olan sonsuz sevgimizdir, el-obaya bağlılığımızdır. Vətənə olan borcunu ödəməkdir. Vətənpərvərlik sözdə deyil, əməldə olmalıdır. Bu gün hər birimiz Mübariz, Fərid, Polad Həşimov və digər qəhrəman oğullarımız kimi sinəsini vətənə sipər etmiş vətən oğullarını tanımalıyıq. Bu igidlər Vətənin gücü, ucalığı, yüksəkliyi deməkdir. Kitabxanada oxucularla iş zamanı Vətən yolunda şəhid olan hər bir qəhrəmanımız qürurla anılır.

## İdman və vətənpərvərlik

Kitabxanada yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli və düzgün təşkil edilməsi, onların sağlam həyat tərzinin, sənət növlərinin təbliği vətənpərvərliyin təbliğinə müsbət təsir edir. Vətənpərvərlik böyük məfhumdur. Gənc nəslin milli mənlik şüurunun inkişaf etməsində, onların vətənpərvər ruhda tərbiyə almasında bir çox amillər mühüm rol oynayır. Vətənin adından həmişə qalib olmaq, bayrağımızı dalğalandırmaq, vətənpərvər gənclərimizin çox olması çox müsbət haldır. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş

şəxslərin, beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri oxucular üçün bir vətənpərvərlik nümunəsidir.

"İdman, əlbəttə ki, sağlamlıqdır. Eyni zamanda, idman vətənpərvərlik hisslərini də gücləndirir." İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Ölkəmizdə gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi dövlətin hər zaman diqqət mərkəzində olmuşdur. Çünki sağlam ruhda yetişən hər bir gənc, yeniyetmə sabahın əsgəridir. Hər bir əsgərdə vətəni sağlam ruhda qorumalıdır. Gənc nəslin milli şüurunun yüksək olması vacibdir. Bugünkü gənclərimiz yüksək mənəviyyata, müqəddəs amallara malik olmalı, vətənpərvər ruhda böyüməli, millətinə, vətəninə sadiqlik nümayiş etdirməlidirlər. Hər bir gənc vətənini sevməli onun ucalması uğrunda canından belə keçməyə hazır olmalıdır. Gənclərə böyük qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev vətənpərvər gənclərin vətənin, xalqın müqəddəratında önəmli rol oynadığını daim vurğulayırdı.

İdman gələcəyimiz olan yeniyetmə və gənclərin fiziki və mənəvi cəhətdən inkişafında, onların vətənpərvər ruhda böyüməsində böyük əhəmiyyətə malikdir. Ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafına yönəldilən diqqət, idmanın kütləviləşməsi, uşaq və gənclərin bu sahəyə fəal surətdə cəlb olunması dövlətimizin əsas prioritet istiqamətlərindəndir. Azərbaycanda yüksək sürətlə inkişaf edən idman və Olimpiya Hərəkatının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə paytaxtda, eləcə də, ölkəmizin

müxtəlif regionlarında Olimpiya idman kompleksləri, meydançalar və digər idman qurğuları inşa edilərək gənclərin istifadəsinə verilib. Bütün bunlar ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi inkişafına, onların sağlam ruhlu vətəndaş kimi böyüməsinə yönəldilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev çıxışları zamanı dəfələrlə qeyd edib ki, idmançılarımızın əldə etdikləri uğurların təməlində, əsas təkanverici stimul Vətən sevgisi, xalqa olan bağlılıqdır.

Qəlbində vətəninə, xalqına böyük sevgi hissləri olan idmançı beynəlxalq arenalarda ölkəsinin şərəfini daim yüksəkdə tutmağa, ləyaqətlə çıxış etməyə çalışır. Fiziki və mənəvi cəhətdən sağlam olan, eyni zamanda vətənpərvər gənclər Ana vətənin keşiyində layiqincə dayanırlar. Bu, Qarabağ uğrunda gedən savaşda öz təsdiqini bir daha tapdı. Torpaqlarımız uğrunda aparılan mübarizədə xalqımız minlərlə övladını itirdi. Təkcə bir faktı deyək ki, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) 33 tələbəsi vətənimizin azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəlib. Onlar vətənin azadlığını, torpaqlarımızın bütövlüyünü öz canlarından da üstün tutdular. Bu şəhidlər müasir gəncliyə örnəkdir. Kitabxanada idmançı olmuş şəhidlərimizin haqqında yazılmış nəşrlərdən, vəsaitlərindən ibarət güşə təkil edə bilərik. Güşədə İdmançı olmuş şəhidlərimizin adlarını qeyd edib, vaxtılə idman uğurlarından məlumat vermək olar.

**Şeir müsabiqəsi**

Kitabxanalarda uşaq və yeniyetmələri vətənpərvərlik ruhunda tərbiyə etmək, onlari doğma vətəni, yurdu şeir dili ilə sevmək hisslərini aşılamaq və bu sahədə xüsusi istedadları tapmaq məqsədilə keçirilən maraqlı tədbirlərdən biridə şeir müsabiqəsidir. Müsabiqəni "Vətən məni çağırır", "Vətəni sevməkazdır, onu qorumaq gərək" başlığı altında təşkil edə bilərik.

**Anım tədbiri**

Kitabxanada keçirilən anım tədbirləri oxucularla işin aparılmasında hazırlanmış səmərəli tədbir formalarından biridir. Anım günlərində kitabxanada oxucular üçün yığıncaqlar, söhbətlər, icmallar, sərgilər və s. hazırlanır. Vətənpərvərlik hisslərinin təbliği ilə bağlı kiçik və böyükyaşlı oxuculara, gənclərə böyük zəfər qələbəmizi bizə qazandıran oğullarımızın xatirəsinə həsr edilmiş ***"Vətən məni çağırdı"*** adlı anım – xatirə günü təşkil edə bilərik. Bu gün üçün ilk öncə əvvəlcədən kitabxanada hazırlıq işləri görülür. Vətənpərvərlik məqsədilə keciriləcək anım gününün mövzusuna uyğun olaraq fotostendlər, sərgilər, güşələr hazırlanır, sənədli filmlərin nümayişi üçün proyektor qurulur, uşaqların əl işlərindən ibarət sərgi düzəldilir. Bu tarix hər il 27 sentyabra təsadüf edir. Həmin gün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Canlı lövhələrlə əks edilmiş Qarabağ müharibəsi döyüşlərindən bəhs edən ədəbi kompozisiyalar, video görüntülər nümayiş etdirilir. Uşaqların ifasında Vətən məhəbbətini, qəhrəmanlığı tərənnüm edən şeirlər söylənir. Tədbirə qazilər, şəhidlərin ailə üzvləri, yaxınları, döyüş yoldaşları dəvət olunur, xatirələri dinlənilir.

**Ədəbi-bədii gecə**

*Vətənpərvər Azərbaycanlı necə olmalıdır?*

*Səhnəyə aparıcılar daxil olur*

*( Səhnə cəbhə bölgəsini xatırladan tərzdə qurulur. Milli Qəhrəmanların portretlərindən istifadə edilir. Tabloda Heydər Əliyevin vətənpərvərliklə bağlı söylədiyi sözlər yazılıb vurulur.*

**Aparıcı:** "Hər bir gənc müstəqil Azərbaycanın gələcəyini təmin etmək üçün vətənini, xalqımızı, dilimizi və milli ənənələrimizi sevməlidir."

**Aparıcı:** Doğma yurdumuz Azərbaycan bizim ana vətənimizdir.

**Aparıcı:** Vətən torpağı müqəddəsdir. Vətən dəyişmir, satılmır, köhnəlmir, qocalmır, o, əbədi və əzəlidir.

**Aparıcı:** Vətənpərvərlik isə dərin anlama malik kəlmədir.

**Aparıcı:** Vətənpərvərliyin dərin və tarixi kökləri vardır.

**Aparıcı:** Vətənpərvərlik ən dərin, ən müqəddəs və ən ülvi hisslərdən, duyğulardan biridir.

**Aparıcı:** Hər bir adamın qiyməti onun vətənə, millətə xidməti ilə, əsl insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür.

**Aparıcı:** Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından, genindən gəlir.

**Aparıcı:** Vətən sevgisi insana ana südü ilə verilir.

**Aparıcı:** Vətənpərvərlik hissi insana körpə yaşlarda aşılanmalıdır.

**Aparıcı:** Vətənə məhəbbət hissi uşağın qanına, canına, ruhuna işləməlidir, "xəmirimiz" vətənə məhəbbət hissi ilə "yoğrulmalıdır.

**Aparıcı:** Vətənpərvərlik tərbiyəsi ailədə başlayıb, bağçada, məktəbdə davam etməli, cəmiyyətdə

formalaşmalıdır.

**Aparıcı:** Vətənpərvərlik tərbiyəsi vətəndaş tərbiyəsinin əsasıdır.

**Aparıcı:** Belə hesab edirik ki, ömrünü xalqına həsr etmiş, Azərbaycançılıq ideologiyasını formalaşdırmış dahi şəxsiyyət- Heydər Əliyev tarixin ən böyük vətənpərvəri idi.

**Aparıcı:** Onun vətən sevgisi hər kəsə nümunədir.

**Aparıcı:** Ulu öndərimizə məxsus "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" sözlərinə uyğun olaraq biz də fəxr edirik ki, Azərbaycanlıyıq.

**Aparıcı:** Azərbaycanlı olan hər kəs, bu vətənin hər bir övladı, Azərbaycanımızın gələcəyi üçün əlindən gələni etməlidir.

**Aparıcı:** Bizdə istəyərdik ki, Prezidentimiz İlham Əliyevin dediyi kimi gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olub, Vətən sevgisi ilə böyüsünlər".

**Aparıcı:** Gənc nəslə vətənpərvərlik hissinin aşılanması üçün yazılmış vətənpərvərlik musiqilərinin də rolu böyükdür.

**Aparıcı:** Vətənpərvərlik mövzusu incəsənətin bir çox sahələrində də öz əksini tapıb. Tarix boyu bu həssas mövzuda minlərlə şeirlər yazılıb, mahnılar bəstələnib. Bu da təsadüfi deyil. Çünki musiqi əhval-ruhiyyəyə təsir göstərən, insanda müsbət emosiyalar yaratmaq gücünə malik olan bir ali qüvvədir.

**Aparıcı:** Gəlin vətənpərlik ruhunda yazılmış mahnılardan dinləyək. *Mahnı səslənir:*

https://www.youtube.com/watch?v=MdJeNHCjTjs
https://www.youtube.com/watch?v=DqNu7zOYvN4

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında vətənpərvərlik mövzusunda hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda:**

Əliyev İ. Zəfər Salnaməsi = Хроники победы = A chronicle of victory. - Bakı: İRS Publishinq Hause, 2021. - 192 s.

Əsədova M. Bayraktar. - Bakı: "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2021. - 47 s.

Həsənli A. Şəhidliyin uca zirvəsində : Sənədli roman. - Bakı: Nurlan, 2010. - 144 s.

Hüseynli S. Qələbəyə çağıran səslər. - Bakı: Zərdabi LTD MMC, 2012. - 128 s.

İbrahimqızı M. Münxendən başlayan zəfər. - Bakı: Zərdabi LTD MMC, 2020. - 558 s.

Ləman F. Təəssüb / Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov : Poema. - Bakı: MBM, 2011. - 44 s.

Məhərrəmli Z. Bədii düsüncədə Qarabağ : Esseler, hekayələr. - Bakı: Zərdabi-Nəşr, 2021. - 304 s.

Nəsiboğlu S. Möhtəşəm zəfərin nişanəsi. - Bakı: Bakı Mətbəəsi , 2021. - 708 s.

Ölümü fəth edənlər : "Rəşadətlə yaşayanlar-Ölümü fəth edənlər" toplusu. 8 Noyabr - Zəfər Günü münasibətilə uşaq və yeniyetmələr arasında keçirilən ümumrespublika hekayə müsabiqəsi qaliblərinin hekayələri. - Bakı: Təhsil, 2021. - 112 s.

Qarabağlı Z. Vətən məni çağırdı. - Bakı: İpək yolu, 2022. - 224 s.

Qırxqızlı H. Bu mənim Vətənim, mənim torpağım : Sonsuz dastan. - Bakı: Mütərcim, 2003. - 572 s.

Qonaqova Ə. Vətən, səndən keçmək olmaz. - Bakı: Hüquq ədəbiyyatı, 2010. - 784 s.

Sadiq G. Vətən mücahidləri. Aprel döyüşləri salnaməsindən : bədii publisistik toplu. - Bakı: Azəri poliqrafiya, 2019. - 304 s.

Sevinc H. Xarıbülbül əfsanələri. - Bakı: EVEREST , 2022. - 47 s.

Sultan Ə. Zəfər yolunda 44 gün. - Bakı: Universal Poliqraf nəşriyyatı, 2022. - 248 s.

Tarix yazan məzunlar. - Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, 2021. - 100 s.

Tarix yazan qəhrəmanlar. - Bakı: Şərq-Qərb, 2021. - 200 s.

Xəlil Z. Dəmir Yumruq Dastanı. - Bakı: "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2021. - 200 s.

Yusifoğlu İ. Mənə bircə gilə göz yaşı bəsdi : Şeirlər və poema. - Bakı: Şirvannəşr, 2021. - 208 s.

Zəfər qoxusu : Antologiya. - Bakı: Təknur, 2020. - 142 s.

**Dövri mətbuatda:**

Abduləlizadə S. Qəhrəmanlıq dastanı yazan yenilməz ordumuz // Respublika. - 2022. - 6 noyabr. - № 244. - S. 5.

Bayramov Z. Vətənpərvərlik nümunəsi : Torpağı Vətən, Vətəni bütöv edənlər // Respublika. - 2021. - 23 sentyabr. - № 203. - S. 5

Əliyev S. Qəhrəmanlıq və vətənpərvərlik ocağı : Qardaşların biri itkin, biri şəhid, digəri qazidir // Azərbaycan. - 2021. - 25 may. - № 106. - S. 6.

Əliyeva Y. Azərbaycanın rəşadətli ordusunun gücü: : Dəmir yumruq, Qisas, Qətiyyətli cavab əməliyyatları // İki sahil. - 2022. - 15 sentyabr. - № 167. - S. 3.

Fikrətoğlu R. Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi // Xalq qəzeti. - 2022. - 24 sentyabr. - № 207. - S. 7.

Həsənquliyev İ. Əsl vətənpərvərlik, siyasi kamillik nümunəsi // Respublika. - 2022. - 15 iyun. - № 125. - S. 10.

Kamal M. Müdafiəyə və hərbə hazır yenilməz ordu // Respublika. - 2022. - 25 yanvar. - № 16. - S. 3.

Mirzə M. Vətənpərvərlik zirvəsi // Respublika. - 2022. - 10 sentyabr. - № 195. - S. 7.

Mirzəbəyli İ. Milli ruh, milli ləyaqət və vətənpərvərlik : Müasir Azərbaycan gənclərini fərqləndirən bu dəyərlərdir // Xalq qəzeti. - 2022. - 4 fevral. - № 25. - S. 1, 3.

Nəcəfxanlı Ə. Azərbaycan Ordusunun gücünü göstərən tarixi hadisə - Horadiz Əməliyyatı // Xalq qəzeti. - 2022. - 6 yanvar. - № 1. - S. 4.

Paşayeva Q. Müzəffər ordumuz şanlı tarix yazır // Xalq qəzeti. - 2022. - 1 iyul. - № 137. - S. 8.

Pərvanə. 44 günlük şanlı tariximiz - Vətən müharibəsi // 525-ci qəzet. - 2022. - 1 oktyabr. - № 178. - S. 4.

Qəniyev E. Ordun varsa, yurdun da var // Azərbaycan. - 2022. - 26 iyun. - № 134. - S. 4.

Qoşalı Ə. Məsuliyyəti şərəfindən az olmayan 44 gün // Xalq qəzeti. - 2022. - 2 oktyabr. - № 214. - S. 6.

Qurbanov S. Zəfər Ordusu // Azərbaycan. - 2022. - 26 iyun . - № 134. - S. 3.

Rəsulov R. Azərbaycan ordusu yeni və irimiqyaslı zərbə endirməyə hazırdır! // Səs. - 2022. - 10 fevral. - № 25. - S. 8-9

Rüstəmov E. 44 günlük döyüş salnaməsi şanlı tariximizdir // Respublika. - 2021. - 6 mart. - № 51. - S. 7.

Süleymanov M. Qarabağ uğrunda Vətən müharibəsinin ilk günü // Xalq qəzeti. - 2022. - 27 sentyabr. - № 209. - S. 5.

Xasayeva S. Vətənpərvərlik // Xalq qəzeti. - 2021. - 16 aprel. - № 78. - S. 3.

# Vətəni sevmək azdır, onu qorumaq gərək

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**